*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***11 (1) 2024***

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:20.01.2024***
***Kabul tarihi |Accepted:10.02.2024***
***Yayın tarihi |Published:25.02.2024***

**Leyla Hasanova**

https://orcid.org/0009-0008-3605-4533
*PhD student of the Department of "History of the Azerbaijan Democratic Republic"of the Institute of History and Ethnology, Azerbaijan, laylahassanova2023@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Hasanova,  L. (2024. Dağıstanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi məsələsinə dair. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (1), 654-665.

# Dağıstanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşməsi məsələsinə dair

***Xülasə***

*Məqalədə 1918-1919-cu illərdə Azərbaycan və Dağlı respublikası arasındakı siyasi əlaqələr tədqiq olunmuşdur. Bu respublikalar 1918-ci ilin may ayında yaranmışdılar və hər iki respublika Osmanlı dövləti ilə diplomatik əlaqələr qurmuşdu.Osmanlı dövləti Qafqazda yaranan bu respublikalara siyasi və  hərbi yardım edirdi. Azərbaycan və Dağlı respublikalarının ən ciddi rəqibləri Sovet Rusiyası və general Denikin idi: hər iki siyasi qüvvə Azərbaycanın və Dağlı respublikasının müstəqilliyini tanımırdılar. Müstəqilliyin qorunması üçün bu respublikalar birləşməyə can atırdılar. Azərbaycan Respublikasında bütün siyasi qüvvələr bu ittifaqı dəstəkləyirdilər. Ancaq Dağlı respublikasında Azərbaycanla birləşmək məsələsində vahid yanaşma yox idi. Dağlı respublikasının Parlamenti 1919-cu ilin may ayında Dağıstanın Azərbaycana birləşmək məsələsini müzakirə etdi. Lakin müzakirələrdən sonra Azərbaycana birrləşmək haqqında konkret qərar qəbul olunmadı. Dağlı respublikasının siyasi xadimlərinin çoxu Azərbaycanla yalnız hərbi ittifaq yaratmağın tərəfdarı idi. Nəzərə alaq ki, Antanta dövlətləri də Dağıstanın Azərbaycana birləşməsinin əleyhinə idilər.*

***Açar sözlər:*** *Azərbaycan, Dağlı respublikası, Denikin, "Könüllü Ordu", Temir xan Şura.*

# About the issue of Dagestan joining the Azerbaijan Democratic Republic

***Abstract***

*In the article, the political relations between Azerbaijan and the Mountainous Republic in 1918-1919 were studied. These republics were established in May 1918, and both republics established diplomatic relations with the Ottoman state. The Ottoman state provided political and military assistance to these republics that were established in the Caucasus. The most serious opponents of Azerbaijan and Daǧli republics were Soviet Russia and General Denikin: both political forces did not recognize the independence of Azerbaijan and Daǧli republics. In order to protect independence, these*

*republics wanted to unite. All political forces in the Republic of Azerbaijan supported this union. However, there was no unified approach in the Republic of Dağli on the issue of uniting with Azerbaijan. In May 1919, the Parliament of the Mountainous Republic discussed the issue of uniting with Azerbaijan. However, after the discussions, no specific decision was made to unite with Azerbaijan. Most of the political figures of the Mountainous Republic were in favor of creating a military alliance with Azerbaijan. Let's take into account that the Entente states were also against the merger of Dagestan with Azerbaijan.*

***Keywords:*** *Azerbaijan, Dagli Republic, Denikin, "Volunteer Army", Temir Khan Shura.*

## Giriş

Müasir dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin araşdırılması tarixçi-alimlər qarşısında duran ən mühüm vəzifələrdən biridir. Ümumən, bu günədən AXC-nin tarixinin tədqiqi sahəsində yetərincə tədqiqatlar aparılmışdır və bu iş günümüzdə də davam etməkdədir. AXC-nin tarixinin tarixşünaslığına diqqət yetirdikdə belə qənaətə gəlmək olar ki, onun daxili və xarici siyasətinə həsr olunmuş onlarla monoqrafiyalar və dissertasiyalar yazılsa da, AXC tarixinin bəzi məsələləri hələlik yetərincə araşdırımamışdır və ilk öncə AXC-nin keçmiş Rusiya imperiyası ərazisində yaranan yeni dövlətlərlə münasibətləri problemi, fikrimizcə, qənaətbəxş səviyyədə öyrənilməmişdir. Bu xüsusda, AXC-nin ən yaxın şimal qonşusu Dağlı Respublikası ilə münasibətlərinin araşdırılması böyük aktuallıq kəsb edir.

Bu mövzunun araşdırılmasını aktual edən əsas şərtlərdən biri də budur ki, Dağlı Respublikası tarixi keçmişi, dini-mənəvi dəyərləri, mədəni həyatı, əhalisinin əksəriyyətinin müsəlman və türk mənşəli olması ilə əlaqədar, yeni yaranan gənc dövlətlər arasında AXC -yə ən yaxın dövlət idi. Azərbaycan Dağlı Respublikasına təkcə Sovet Rusiyası ilə aralıqda yerləşən bufer zona kimi baxmırdı: AXC-nin siyasəti bu Respublikaya hər vasitə ilə yardım edilməsinə, onun xarici müdaxilədən, xüsusən Denikin təhlükəsindən qorunmasına, daxilən möhkəmlənməsinə yönəlmişdi. Təsadüfi deyil ki, AXC-nin dövlət büdcəsinin səkkizdə biri kredit kimi Dağlı Respublikasının ehtiyaclarına ayrılmışdı.

Azərbaycanın Dağlı respublikasına rəğmən apardığı dostluq və qardaşlıq siyasəti Dağlı Respublikası cəmiyyətində AXC-yə böyük rəğbət qazandırmışdı və bu səbəbdəndir ki, 1919-cu ilin yazında Denikin tərəfindən tam işğal təhlükəsi qarşısında qalan Dağlı Respublikası rəhbərliyi Dağıstanın Azərbaycana birləşdirilməsi barədə məsələ qaldırmışdı və təqdim olunan məqalənin əsas məqsədi tarixşünaslığımızda az tədqiq olunan bu məsələyə işıq salmaqdır. Belə ki, son illər Rusiya Federasiyasında çap olunan əsərlərdə və bəzi internet resurslarında Dağıstanın Azərbaycana birləşmək arzusu təhrif olunmuş şəkildə göstərilir, əsassız olaraq Azərbaycan Cümhuriyyətinin Dağıstanı ilhaq etmək kimi mövcud olmayan planlardan

danışılır. Təbii ki, bu cür fikirlərin yaranmasının əsas səbəblərindən biri də elmi ictimaiyyətin bu məsələni arxiv sənədləri əsasında öyrənməməsi, onların Azərbaycan və Dağlı Respublikalarına şovinist münasibət bəsləyən Denikin və sair ağqıvardiyaçı mühacirlərin memuarlarından bəhrələnməsidir. Məqalədə AXC – Dağlı Respublikası münasibətlərində Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsinin gündəmə gəlməsinin tarixi şərtləri, məsələnin müzakirə prosesi, Dağlı Respublikası cəmiyyətinin müxtəlif siyasi qruplarının bu məsələdə mövqeyi arxiv sənədləri əsasında işıqlandırılmışdır ki, bu da məqalənin elmi yeniliyini təşkil edir.

**1.Dağlı Respublikasının yaranması və AXC ilə ilk siyasi təmasları**

Çar Rusiyası dağıldıqdan sonra yaranan və tarix nöqteyi-nəzərindən qısa bir zaman kəsiyində mövcud olmuş gənc dövlətlərdən biri də Dağlı respublikası olmuşdur. Bu respublika 1918-ci ilin mayın 11-də Batumda rəsmi olaraq “Şimali Qafqaz və Dağıstan dağlılarının İttifaqı respublikası” (qısaca-Dağlı Respublikası) kimi elan edilmişdir (Soyuz ob"yedinennıh gortsev Severnogo Kavkaza i Daqestana, 2013, s. 76). Bura o vaxtkı Dağıstan və Terek vilayətlərinin dağlıq əraziləri (indiki-Çeçenistan, İnquşetiya, Kabarda - Çərkəz, Karaçay- Balkar, Şimali Osetiya və Adıgey) və Noqay çölləri daxil idi. Dövlət dili rus dili olan bu respublikanın əraziləri 125 min км² və əhalisi 2,9 milyon olmuşdur. Həmin dövrdə Şimali Qafqaz bolşeviklərin əlində olduğundan birinci Dağlı hökuməti Əbdülməcid Çermoyevin başçılığı ilə 1918-ci ilin mayın 24-də mühaciratda – Gəncədə təşkil olunmuşdu (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, 2004, s. 207). Sonralar bu hökumət Tiflisə köçmüş və 1918-ci ilin noyabrınadək Gürcüstanda fəaliyyət göstərmişdir. Yalnız 1918-ci ilin oktyabrında Dağıstan əraziləri Qafqaz İslam Ordusu tərəfindən biçeraxovçulardan təmizləndikdən sonra Dağlı hökuməti əvvəl Tiflisdən Dərbəndə gəlmiş, daha sonra isə respublikanın paytaxtı Temir-xan-Şuraya (indiki-Buynaksk şəhəri) köçmüşdür.1918-ci ilin dekabrın 15-dən Dağlı hökumətinə kabardin mənşəli Pşemaxo Kotsev başçılıq etmişdir.

Cənubi Qafqaz Federativ Respublikasının süqutundan sonra 28 may 1918-ci il tarixdə yaranan və Tiflisdə fəaliyyətə başlayan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) şimal qonşusu Daglı Respublikası ilə münasibətlərə böyük önəm verirdi (Aqasiyev, Prestupleniya armyan-daşnakov, 2023, s. 423). Qarşılıqlı əməkdaşlığa ilk addım AXC tərəfindən atılmışdı: hələ 1918-ci ilin iyunun 26-da AXC-nin Xarici İşlər Naziri Məmmədhəsən Hacinski Dağlı respublikasının hökumət başçısı Ə. Çermoyevə məktub ünvanlamış, AXC-nin Dağlı respublikası ilə yaxın dostluq münasibətləri qurmaq arzusunu ifadə etmişdi (Nəsibzadə, 1996, s. 176). Başqa qonşulardan fərqli olaraq Azərbaycan Respublikası və Dağlı Respublikası arasında biri-birinə ərazi, əmlak və sair iddialar yox idi.

Həm AXC-yə, həm də Dağlı Respublikasına ən çox dostluq münasibəti sərgiləyən dövlət Osmanlı dövləti olmusdur (Görüryılmaz, 2009, s. 233). Batum şəhərində 1918-ci ilin iyunun 4-də Osmanlı-Azərbaycan və iyunun 8-də Osmanlı dövləti ilə Dağlı hökuməti arasında sülh və dostluq müqavilələri imzalanmışdı (Göyüşov, 2000, s. 193). Müqavilələrə əsasən Osmanlı dövləti AXC və Dağlı respublikasına hərbi yardım etməyi və kənardan gələn hər çür təhlükədən qorumagı öhdəsinə götürürdü (Göyüşov, 2000, s. 193). Eyni zamanda, Osmanlı rəsmi dairələrində Azərbaycan və Dağlı respublikalarının güclərinin bir ittifaqda birləşdirilməsi məsələləri zaman-zaman müzakirə olunurdu. Hesab edilirdi ki, iki gənc respublika birlikdə xarici düşmənlərdən daha effektli müdafiə oluna bilər, daxili problemlərini ümumi səylərlə həll edə bilərlər (Aliyeva, 2015, s. 117). Artıq 1918-ci ilin iyulun 10-da AXC hökuməti növbəti iclasında bu məsələni müzakirəyə çıxardı.Məsələ ilə bağlı AXC-nin Xarici İşlər Naziri M. H. Hacinski iclasda geniş məruzə etdi, Azərbaycan və Dağlı respublikalarının ittifaqının vacib-liyini və ittifaqın hər iki tərəf üçün arzu olunan olduğunu vurğuladı. Müzakirədən sonra iclasda hökumət qərar qəbul etdi. Qərarda deyilirdi ki, Azərbaycan və Dağlı respublikalarının sıx bir formada birləşməsi arzu olunandır və ilk növbədə iki respublikanın 4 əsas əməkdaşlıq istiqamətində birləşməsi vacib hesab olunurdu: a) silahlı qüvvələr; 2) xarici işlər; 3) dini işlər və 4) maliyyə məsələləri (Boldırev, Kakaqasanov, Hapçayev, Nazarov, 2018, c. 108-109). Bundan savayı, qərarda göstərilirdi ki, yuxarıda sadalanan sahələr üzrə müqavilənin bağlanması ilə yanaşı, müqaviləyə əlavə kimi 2 əsas məsələ ilə bağlı daha müfəssəl aydınlıq gətirilməlidir: 1) silahli qüvvələr və xarici siyasət məsələlərində hər iki respublikanın Türkiyəyə münasibəti və 2) Azərbaycan respublikası ilə Dağlı respublikası arasında dövlət sərhəd xəttinin təsdiq-lənməsi (Boldırev, Kakaqasanov, Hapçayev, Nazarov, 2018, c. 108-109). Yuxarıdakı müddəaların məzmunundan görünür ki, AXC və Dağlı Respublikalarının bir dövlət çərçivəsində deyil, iki suveren dövlətin bir siyasi ittifaqda birləşməsi nəzərdə tutulurdu. AXC hökumətinin 10 iyul iclasında bağlanacaq müqavilənin mətninin və İttifaqın Konstitusiyasının hazırlanması üçün Xüsusi Komissiya yaradıldı və tezliklə Komissiya 9 maddədən ibarət İttifaq müqaviləsinin mətnini hazırladı.Azərbaycan və Dağlı respublikası əhalisinin böyük əksəriyyətinin dindar müsəlmanlardan ibarət olduğunu nəzərə alaraq müqavilədə dini birlik məsələlərinə xüsusi yer ayrılmışdı. Belə ki, 5-ci maddədə hər iki respublikada müsəlmanların dini işlərinə vahid şeyx-ül-islamın rəhbərlik edəcəyi göstərilir və bütün müsəlmanların xəlifəsi kimi Osmanlı dövlətinin sultanı qəbul olunurdu (Boldırev, Kakaqasanov, Hapçayev, Nazarov, 2018, c. 108-109). Osmanlı dövlətinin siyasəti Qafqazda yeni yaranan dövlətlərin qorunmasına, onların yenidən Sovet Rusiyası və yaxud ağqvardiyaçı ordular tərəfindən işğalının qarşısını

alınmasına yönəlmişdi.Bu səbəbdəndir ki, 1918-ci ilin sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını azad etdikdən dərhal sonra Dağıstanın və ümumiyyətlə Şimali Qafqazın bolşeviklərdən və biçeraxovçulardan azad olunmasına başladı (Ağasiyev, Almanya'nın Kafkas İslam Ordusu'na Karşı Planlarında, 2023, s. 610). Qafqaz İslam Ordusu Şimali Qafqaza dair hərəkət planı hazırlamışdı. Plana əsasən, ilk olaraq Qafqaz İslam Ordusu 1918-ci ilin oktyabrın 6-da Dərbənd bölgəsini tam nəzarətə götürdü (Mustafayev, 2013, s.33). Bundan sonra, oktyabrın 23-də Temir-xan-Şura, noyabrın –7-də isə Petrovsk (Maxaçqala) Biçeraxovun rus-erməni qüvvələrindən təmizləndi.

Qafqaz İslam Ordusunun Şimali Qafqazdakı uğurları Tiflisdə qərarlaşan Dağlı respublikasının fəaliyyətinə də müsbət təsir göstərirdi - Dağlı hökuməti öz ərazilərinə köçməyə hazırlaşırdı, lakin hökumət maliyyə cəhətdən ağır durumda idi. Hələ 1918-ci ilin 13 sentyabr tarixində Dağlı respublikasının hökumətinin sədri A. Çermoyev hökumətin cari xərclərini qarşılanması üçün AXC hökumətinə müraciət edərək 10 milyon rubl borc istəmişdi (Soyuz ob"yedinennıh gortsev Severnogo Kavkaza i Dagestana, 2013, s. 98). Vəziyyəti nəzərə alaraq 1918-ci ilin 08 oktyabr tarixində AXC hökuməti Dağlı hökumətinə yardım edərək 1 mln. manat civarında faizsiz kredit ayırdı (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, 2004, s. 207). Dərbənd azad edildikdən sonra Ə. Çermoyevin rəhbərlik etdiyi Dağlı respublikası hökuməti oktyabrın 13-də Dərbəndə, oktyabrın 24-də isə oradan Temur-xan-Şuraya köçdü. AXC-dən sonra Dağlı respublikasının da çox hissəssinin azad edilməsi hər iki respublikanın birləşməsi üçün münbit şərait yaratdı və Osmanlı tərəfi yenə öz fikrini təkrarlayırdı ki, düşmənlərə qarşı birgə mübarizə aparmaq üçün AXC və Dağlı Respublikası birləşməlidirlər (Aliyeva, 2015, s. 117). 1918-ci ilin oktyabrın 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlı respublikası xarici müdaxilələrdən qorunmaq və respublikaların müstəqilliyini təmin etmək üçün ümumi və güclü müdafiə sistemi yaratmaq, həmçinin respublikaların iqtisadiyyatını uzlaşdırmaq, daxili və xarici siyasət məsələləri üzrə fəaliyyəti birləşdirmək məqsədi ilə öz aralarında müttəfiqlik haqqında müqavilə bağladılar (Soyuz ob"yedinennıh gortsev Severnogo Kavkaza i Dagestana, 2013, s. 103-104). Lakin 1918-ci ilin noyabrında baş verən hadisələr iki respublikanın inteqrasiyasını əngəllədi. İlk öncə, Osmanlı dövləti 1918-ci ilin 30 oktyabr tarixdə Mudros barışığını imzaladı və I Dünya müharibəsindən məğlub kimi çıxdı. Osmalı dövləti xaricdəki bütün hərbi qüvvələrini buraxmalı və onlar Türkiyəyə qayıtmalı idilər.Türkiyə, eyni zamanda Azərbaycan Antanta dövlətlərinin mandatına verilirdi.1918-ci ilin noyabrın 17-də Tomsonun komandanlığı ilə Britaniya hərbi qüvvələri Bakıya daxil oldu və AXC-də Böyük Britaniyanın nəzarəti bərqərar oldu.

İlk dövrlər AXC hökumətinə etimadsız yanaşan ingilislər Azərbaycanın və Dağlı respublikasının birləşməsi ideyasına mənfi yanaşırdılar, bu planın Osmanlının panturanizm proyekti olması qənaətində idilər (Azerbaycanskaya Demokratiçeskaya Respublika. Arxivnıye dokumentı Velikobritaniyi, 2011, c. 17-18). 1919-cu ilin yanvarında Temir xan Şurada Dağlı Respublikasının Parlamenti işə başladı və AXC hökuməti Dağlı respublikasının Parlamentinin fəaliyyətə başlamasını salamlayaraq teleqram göndərdi.Dağlı Parlamentinin cavab teleqramında Azərbaycan və Dağlı xalqlarının birliyə can atmasından, mənəvi-mədəni birliyindən danışılır, Sovet Rusiyası və Cənubi Rusiya Silahlı Qüvvələrinin arasında çətin durumda qalan Dağlı respublikasının ümidlərinin yalnız Azərbaycana və Gürcüstana olduğu vurğulanırdı (Aliyeva, 2015, s. 121).

**2.Dağıstanın AXC-yə birləşməsi məsələsinin gündəmə gəlməsi**

1919-cu il yanvarın əvvəllərində bölşevizmə qarşı olan bütün qüvvələr tərəfindən general A. İ. Denikin Cənubi Rusiya Silahlı Qüvvələrinin (CRSQ) və Don ordusunun Baş komandanı kimi qəbul edildi (Ağasiyev,Məmmədzadə, 2023, s. 1292). 1919-cu ilin yanvarından Denikinin "Könüllü Ordu"su Dağlı respublikasının qərb ərazilərini işğala başlamışdı. AXC höküməti Denikin işğalını dayandırmaq üçün Dağlı respublikasına həm maliyyə, həm də hərbi baxımdan bacardığı yardımı edirdi. 1919-cu ilin yanvarın 9-da AXC ilə Dağlı respublikası arasında daha bir müqavilə bağlandı. Müqavilələri Azərbaycan tərəfdən ərzaq naziri K. N. Lizqar, Dağlı respublikası tərəfdən isə bu respublikanın Azərbaycandakı nümayəndəsi Əlixan Qantəmir imzalamışdılar (Azerbaydzhanskaya Demokraticheskaya Respublika. Vneshnyaya politika (Dokumenty i materialy, 1998, s. 111). 1919-cu ilin fevral-mart aylarında Dağlı respublikasının qərb hissəsini ələ keçirən Denikinin "Könüllü Ordusu" aprelin 7-də Qroznıy şəhərini, aprelin 9-da isə Qudermesi ələ keçirdi. Beləliklə, Dağlı respublikasının dəmir yolları "Könüllü Ordu"nun nəzarətinə keçdi. Bu Dağlı respublikasının iflası demək idi. Dağlı respublikasını sakitləşdirəcək açıqlama ingilis komandanlığı nümayəndəsi Raulensondan gəldi və o bəyan etdi ki, Denikin Terek vilayətindən sonra Dağıstan vilayətinə girməyəcək, çünki Dağıstan İngiltərənin təsir dairəsinə keçəcəkdir (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 14 arxası). Raulensonun sözlərinə görə, Denikin yalnız Petrovsku tələb edirdi ki, buradan Xəzər dənizi vasitəsi ilə Ural və Volqadakı ağqvardiyaçılarla əlaqə saxlaya bilsinlər. Dağıstan barədə Denikin hələlik susurdu.

1919-cu il aprelin 8-də Dağlı respublikası hökuməti Denikin işğalına qarşı ümumi hərbi səfərbərlik elan etsə də, onun heç bir nəticəsi olmadı. Xalqdan uzaq hökumət yalnız dəftərxana işləri ilə məşğul olurdu, əhalinin səfərbərliyə alınması ilə bağlı yerlərdə heç bir əməli iş

aparılmırdı. Parlament sədri Cabaqiyev höküməti fəaliyyətsizlikdə günahlandırdı və ona Daxili İşlər Naziri vəzifəsi verilərsə, 3 gün ərzində ordu yaradacağına söz verdi. İclasda bir çox təkliflər söylənildi və nəhayət qərar qəbul olundu ki, həm Dağıstanda, həm də Çeçenistanda tanınan və hörmət edilən Uzun Hacının iştirakı olmadan xalqa müraciət qəbul olunmasın. Parlamentin xahişi ilə 13 apreldə Uzun Hacı Temir – xan Şuraya gəldi və onun ilk görüşdüyü şəxslərdən biri də AXC-nin səfiri Ə.Haqverdiyev oldu. Haqverdiyevlə görüşdə Uzun Hacı Azərbaycanın müstəqilliyini salamladı və Bakıya nümayəndə heyəti göndərmək niyyətini bildirdi (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 15 arxası). 14 apreldə Temir – xan Şuraya başqa bir dini lider – Əli Hacı Levaşinskiy gəldi. Parlament üzvləri ilə görüşdən sonra deputatlar aullara səpələnməli və xalqı orduya çağırmalı idilər. Təbii ki, "Könüllü ordu"nun Dağıstanda da öz casusları var idi və bütün bu baş verənlər haqqında Denikinə məlumat göndərilirdi. Dağlı respublikasının qərb hissəsi və xüsusən Çeçenistanla İnquşetiyanın Denikin tərəfindən işğalından sonra Dağıstanın da işğal olunması təhlükəsi artmışdı. Belə bir şəraitdə Dağlı Respublikası Parlamenti Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsini çox ciddi şəkildə müzakirə etməyə başladı. Bu haqda səfir Ə.Haqverdiyev Bakıya teleqram vurmuş və Dağıstanın Azərbaycana birləşdirilməsi ilə bağlı məsələlərlə fəal məşğuliyyət üçün Azərbaycan hökümətinin razılığını istəmişdi (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 26 arxası).

1919-cu ilin yazında Dağıstanda Azərbaycana birləşmək ideyası geniş yayılmışdı. Azərbaycan hökuməti də hər vasitə ilə Dağlı respublikasına yardımlarını davam etdirirdi: 1919-cu ilin martında Dağlı hökumətinə 27500 rubl, apreldə isə 10000 rubl, ümumiliklə 37,500 rubl maliyyə yardımı göstərilmişdir (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 2, iş 84, vərəq 17). Qeyd edək ki, Dağlı respublikası o dövrdə 10 dairədən ibarət idi ki, onlardan 4 dairə tam şəkildə Azərbaycana birləşmək niyyətində idi. Arxiv mənbələrindən görünür ki, yerdə qalan dairələrdə də bu cür əhval-ruhiyyə var idi, lakin hələlik açıq şəkildə bəyan etmirdilər. Bu məsələni müzakirə etmək üçün aprelin ortalarında Bakıya general Xəlilovun gəlişi gözlənilirdi (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 16).

AXC hökuməti Denikin Ordusunun Dağlı respublikasına qarşı təcavüzündən çox narahat idi. Baxmayaraq ki, ingilis nümayəndəsi Raulenson Denikinin Dağıstana girməyəcəyi haqqında bəyanət vermişdi, amma buna zəmanət yox idi. Ə. Haqverdiyev AXC hökumətinə məsləhət görürdü ki, Dağıstanın müdafiəsi üçün Dağıstana bir alay göndərilməlidir. Ə.Haqverdiyevin fikrincə, əgər Dağıstan əldən gedərsə, onda Azərbaycana birbaşa təhlükə yaranacaqdır (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 16). 28 aprel 1919-cu il tarixdə Dağlı respublikasının Parlamentində bir qrup Dağıstan zabitinin təşəbbüsü ilə

Dağıstanın Azərbaycana birləşməsi məsələsi müzakirəyə çıxarıldı (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 21). Müzakirədə zabitlər, Parlament üzvləri, din xadimləri, ziyalılar iştirak edirdilər. Mayın 5-də Bakıdakı müttəfiq qoşunlarının komandanı general U. Tomson da Fətəli xan Xoyski ilə görüşündə Dağıstanın iqtisadi, topoqrafik və digər cəhətlərdən Azərbaycanla bağlı olduğuna görə, onun Cümhuriyyətə birləşdirilməsini labüd saymışdı (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I, 2004, s.149). Müttəfıqlərin mövqeyi və Dağıstanın Azərbaycanla birləşmək niyyətlərinin ciddi olduğunu görən Denikin bölgədə təxribatçılıq fəaliyyətini gücləndirdi. Dağıstan əhalisinin rəğbətini qazanmaq üçün Dağıstana yerli özünüidarəçilikdə sərbəstlik verəcəyini vəd etdi, yüksək rütbəli dağıstanlı zabitlərini Şimali Qafqazın müsəlman bölgələrinin idarə edilməsinə cəlb etdi (Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, 2004, s.149). Ə. Haqverdiyevin 1919-cu ilin mayın 9-da M.Cəfərova göndərdiyi teleqramın məzmunundan görünür ki, aprelin 28-də başladılan müzakirə davam etməkdə idi (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 25-26). Sənəddən bəlli olur ki, müzakirədə Dağıstanın Azərbaycana birləşdirilməsi ilə bağlı 3 mövqe sərgilənmişdir. Dağıstan zabitlərinin mövqeyinin məzmunu belə idi : onlar hesab edirdilər ki, Azərbaycan Dağlı respublikası ilə birlikdə "Könüllü Ordu"ya qarşı əməliyyatların aparılmasında iştirak etməlidir və yalnız Denikin orduları Dağlı respublikasından qovulduqdan sonra nəinki Dağıstanın, eyni zamanda bütün Dağlı respublikasının AXC ilə federativ və yaxud konfedarativ əsaslarda birləşməsi məsələsi müzakirə oluna bilər.

Parlamentdəki dağıstanlı deputatların mövqeyinə gəldikdə, onlar hesab edirdilər ki, hazırkı durumda Dağlı respublikasının qalan hissəsi "Könüllü Ordu"nun işğalında olduğundan yalnız Dağıstan Azərbaycana birləşməlidir və ümumi qüvvələrlə denikinçilər Dağlı respublikasından qovulduqdan sonra parlamentə azad, demokratik seçkilər keçirilir və bundan sonra Dağlı respublikasının yerdə qalan ərazilərinin də Azərbaycana birləşdirilməsi məsələsi müzakirə oluna bilər (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 25, 25 arxası). Dini liderlər Uzun Hacı və Əli Hacı Dağlı respublikasını xilas etməklə bağlı öz planlarını hazırlamışdılar. Uzun Hacı da Dağlı respublikasının Azərbaycana birləşməsini dağlı xalqlarının xeyrinə olacagını düşünürdü (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 26 arxası). Azərbaycanla birləşmək barədə Dağıstan tərəfinin mövqeyi Parlamentin Çeçenistan, İnquşetiya, Kabarda və s. Şimali Qafqaz dairələri nümayəndələrində təlaş yaratdı. Onlar Dağıstanın Dağlı respublikasından qoparaq Azərbaycana birləşmək fikrini İmam Şamilin, Amalatın, Həmzət bəyin və sair Şimali Qafqazı birləşdirmək uğrunda mübarizə aparanların ideallarına yad addım kimi qiymətləndirdilər.Onların fikrincə, Dağıstanın

Azərbaycana birləşməsi Şimali Qafqaz İttifaqının iflasına səbəb ola bilərdi və Şimali Qafqaz xalqlarının Denikinə qarşı mübarizəsinə zərbə vurmuş olardı (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 25 arxası). 1919-cu ilin mayında Çeçenistanın düzəngah əraziləri Denikin qoşunlarının nəzarətində idi və bu nəzarət Qudermesdə yerləşdirilən "Könüllü Ordu" qarnizonları tərəfindən həyata keçirilirdi. Çeçenistanın dağlıq ərazisi isə Denikinə tabe olmamışdı və döyüşə hazırlaşırdı. Düzən Çeçenistanın kənd və şəhərlərində demək olar ki, qocalar, qadınlar, uşaqlar qalmışdı, əli silah tuta bilən kişilər, gənclər dağlara çəkilmişdilər.Dağlı hökumətinin başçısı P. Kotsevin bəyanatına görə inquşlar, kabardinlər və osetinlər də "Könüllü Ordu"ya qarşı səfərbər olmuşdular (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 26). 1919-cu ilin mayın ortalarında "Könüllü Ordu"nun əsas hissələrinin Həştərxana, bolşeviklərlə doyüşlərə cəlb edildiyindən, Dağlı respublikasında onların sayı nisbətən azalmışdı və "Könüllü ordu"ya qarşı effektli mübarizə üçün əlverişli hərbi-siyasi şərait yaranmışdı.

### 3. Dağlı Respublikasının süqutu və Dağıstanın AXC-yə birləşdirilməsi ideyasının iflası

1919-cu ilin mayın ortalarına Dağlı hökuməti yaranmış hərbi – siyasi üstünlüklərdən yararlana bilmədi, əksinə hökumət böhranı daha da dərinləşdi: Kotsev hökumətinin üzvləri istefa haqqında ərizə yazdılar ki, onlar Kotsevin siyasəti ilə razı deyillər və onunla bir yerdə işləyə bilməzlər. Hökumət böhranı Dağıstan alayının Denikinə meylli zabitlərini fəallaşdırdı. Onlar Çeçenistanın keçmiş qubernatoru, Dağıstan atlı alayının komandanı podpolkovnik Cəfərovu hərbi diktator elan etmək istiqamətində işə başladılar. Podpolkovnik Cəfərov zabitlərin yığıncağına çağrıldı və ona təklif olundu ki, vaxt uzatmadan özünü hərbi diktator elan etsin. İclasa içkili gələn Cəfərov bu təklifi qəti şəkildə rədd edərək zabitlərə belə cavab vermişdi: "Mən, cənablar, indi bir az içkili vəziyyətdəyəm, ancaq mən hətta tam sərxoş olsaydım belə, sizin təklifinizlə razılaşmazdım" (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 29). Cəfərovun diktatorluqdan imtina etməsindən sonra 3 nəfərdən - general Xəlilov, podpolkovnik Cəfərov və Şeyx Uzun Hacıdan ibarət direktoriyanın yaradılması qərara alındı. Ancaq bu variant da baş tutmadığından parlamentin əli ilə çevriliş etmək qərara alındı. 1919-cu ilin 12 may tarixində Kotsev hökumətinin üzvlərinin kollektiv istefası qəbul edildi və parlamentin yeni kabinet yaratmaq haqqında köhnə hökumət üzvlərinə müraciəti cavabsız qaldı-onlar hamısı hökumətə girməkdən imtina etdilər. Dağıstan alayının zabitləri isə yubandırmadan hökumətin formalaşmasını tələb edir, əks təqdirdə hakimiyyəti öz əllərinə almaqla hədələyirdilər (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 29 arxası).

1919-cu il mayın 13-də general Xəlilov zabitlərin təyziqi ilə Baş nazir vəzifəsinə namizədliyini irəli sürdü və yekdilliklə hökumət başçısı seçildi. General Xəlilovun hökuməti aşağıdakı tərkibdən ibarət idi: Baş nazir, hərb naziri və daxili işlər naziri-general Xəlilov, onun mülki işlər üzrə müavini – polkovnik Musalayev, hərbi işlər üzrə müavini – polkovnik Hacı Murad, Xalq təsərrüfatı naziri – bütün siyasi rejimlərlə işləmək bacarığı olan Əli Həsənov, Nəqliyyat və poçt naziri – Mollaçi – xan, Ədliyyə, təhsil və xarici işlər nazirliklərinin bir nəfərə həvalə edilməsi nəzərdə tutulurdu ki, hələlik uyğun namizəd tapılmamışdır. Alınan məlmatlara görə bu vəzifəyə Kotsevin təyin olunması gözlənilirdi. AXC-nin nümayəndəsi Ə.Haqverdiyev bu hökumət dəyişikliyini hərbi çevriliş adlandırdı, çünki hakimiyyət əsasən hərbçilərin əlində cəmləşmişdi (Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 30). Beləliklə, rəsmi olaraq 1919-cu ilin mayın 23-də hərbi çevrilişin nəticəsi olaraq Dağlı respublikası süqut etdi,başda general Xəlilov olmaqla Denikinyönümlü hökumət formalaşdırıldı və təbii ki, Dağıstanın Azərbaycana birləşdirilməsi məsələsinin də müzakirəsi sona çatdı.1919-cu ilin iyunundan başlayaraq mühacir həyatı yaşayan keçmiş Dağlı Respublikasının siyasi xadimlərinin əsas fəaliyyəti Azərbaycanın və Gürcüstanın yardımı ilə Dağlı respublikasının bərpası yollarını axtarışına istiqamətlənmişdi.

**Nəticə**

Dağlı Cümhuriyyəti yarandığı ilk aylardan Azərbaycan dövlətini özünün əsas müttəfiqi kimi qiymətləndirmişdi və onunla ittifaqda maraqlı idi. Bu ittifaqda həm AXC, həm də Osmanlı dövləti də maraqlı idilər.Zaman-zaman ittifaqa Gürcüstan da maraq göstərirdi. Lakin bir sıra sosial-iqtisadi, siyasi səbəblər, Azərbaycan ordusunun əsas diqqətinin erməni təcavüzünə yönəlməsi, həmçinin Müttəfiq dövlətlərin təzyiqləri səbəbindən Azərbaycanla Dağlı Cümhuriyyətinin ittifaqı reallaşmadı. Xüsusilə vurğulamaq yerinə düşər ki, Dağlı Respublikanın əhalisi və siyasi liderlərinin bir qismi arasında, xüsusən Dağıstanda Azərbaycanla ittifaq qurmaq əhval-ruhiyyəsi çox yüksək idi. Onlar başa düşürdülər ki, Dağlı Respublikanın Azərbaycandan etibarlı müttəfiqi yoxdur və bu səbəbdən də Dağlı Respublikasının Azərbaycanla bir ittifaqda birləşməsi təklifi həmişə Dağlı respublikası tərəfdən gəlmişdi. Azərbaycan tərəfi bu məsələdə fəal idi: Azərbaycan hökuməti Dağlı Respublikasına dəfələrlə maliyyə yardımı etmiş,denikinçilərə və bolşeviklərə qarşı mübarizədə həm diplomatik kanallarla, həm də hərbi qüvvə ilə, hərbi ləvazimatla dəstək olmuşdu.Bir faktı qeyd etmək yerinə düşər ki, AXC –nin Dağlı respublikasına ayırdığı maliyyə vəsaiti respublikanın illik büdcəsinin səkkizdə birini təşkil etmişdir.Bir sözlə, AXC Dağlı Respublikasına əsl müttəfiqlik münasibəti bəsləyirdi.Lakin əldə olan arxiv sənədlərinə əsasən deyə bilərik ki, Dağlı

Respublikasının liderlərinin bir qismi Azərbaycanın maliyyə və hərbi gücündən öz xeyirlərinə istifadə etməyin əleyhinə deyildilər və Azərbaycanla ittifaqda birləşmə məsələsinə yalnız Dağlı respublikasının daxili və xarici problemlərinin həlli vasitəsi kimi baxırdılar. Baxdığımız dövrdə Azərbaycanın və Dağlı Respublikasının ittifaq yaratmaq məsələsi aparıcı dövlətlərin mövqeyindən də asılı idi. 1918-1919-cu illərdə dünya siyasətində söz sahibi olan Antanta Ali Şurası dövlətləri köhnə Rusiya imperiyasını bərpa etmək istəyən ağqvardiyaçı qüvvələri dəstəklədiklərindən nə AXC, nə də Dağlı Respublikasını müstəqil dövlət kimi rəsmən tanımaq istəmirdilər. Məhz Antanta Ali Şurasını, xüsusən də İngiltərənin Azərbaycanın və Dağlı Respublikasının məsələlərinə "rus məsələsi" kontekstində baxması, bir çox vacib məqamlarda denikinçilərə dəstək verməsi, ən taleyüklü məsələlərdə, həmçinin Dağıstanın Azərbaycana birləşməsi məsələsində gözləmə mövqeyi tutması öncə denikinçilərin, ardınca isə bolşeviklərin Şimali Qafqazda möhkəmlənməsinə şərait yaratdı.

## Kaynaklar

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild.(2004). "Lider nəşriyyat".

Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 14-16.

Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 21.

Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 25-26.

Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 1, iş 59, vərəq 29-30.

Azərbaycan Cümhuriyəti Dövlət Arxivi, fond 970, siyahı 2, iş 84, vərəq 17.

*Azerbaydzhanskaya Demokraticheskaya Respublika. Vneshnyaya politika. (Dokumenty i materialy).* (1998). Azerbaydzhan neşriyyatı.

*Azerbayjanskaya Demokratiçeskaya Respublika: Arhivnıye dokumentı Britanii.* (2011). Turxan nəşriyyatı.

Ağasiyev, İ. (2023). Almanya'nın Kafkas İslam Ordusu'na Karşı Planlarında "Kafkas Alman Nüfusu" Faktörünü Kullanması 1918. *Akademik Tarih ve Düşünce Dergisi, TürkiyeAzerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 595-612.

Ağasiyev, İ., Məmmədzadə, S. (2023). Don Cümhuriyəti və Güney Rusiya Silahlı Qüvvələrinin Azərbaycan Xalq Cümhuriyəti ilə münasibətləri (1918-1920). *Akademik Tarih ve Düşünce Dergisi, 10* (5), 1287-1300.

Ağasiyev, İ. (2023). Prestupleniya armyan-daşnakov protiv nemetskogo naseleniya. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (2), 410-424.

Aliyeva S.İ. (2015). Azerbaydzhanskaya Demokraticheskaya Respublika i Qorskaya Respublika: sotrudniçestvo, proyektı ob"yedineniya i vzaimodeystviye s Osmanskoy imperiey

(po dokumentam, soglasheniyam i notam 1918-1920 gg.). (Çast pervaya). *Severo-Kavkazskiy yuridicheskiy jurnal*, 4, 115-137.

Boldyrev Y., Kakagasanov G., Hapçayev, S., Nazarova, O. (2018). Azerbaycanskaya Narodnaya Respublika - 28 maya 1918 goda, Qorskaya "nezavisimaya" Respublika (11 maya 1918 goda): İstoriya druzhestvennyıh otnosheniy (k 100-letiyu ih obrazovaniya). *Nauchnıye trudı Instituta istorii NANA. Azerbaycanskaya Narodnaya Respublika. Materialı mejdunarodnoy nauçnoy konferensii, posvyaşennoy teme: Yarkaya stranitsa istorii gosudarstvennosti Azerbaycana. Spetsvıpusk.74, 75, 76,* 104-114.

Görüryılmaz, M. (2009). *Qafqaz İslam Ordusu və ermənilər (1918).* Qismət nəşriyyatı.

Göyüşov, A. (2000). *1917-1920-ci illərdə Şimali Qafqaz dağlılarının azadlıq uğrunda mübarizəsi.* Araz nəşriyyatı.

Mustafayev, B. (2013).Türk Islam Ordusu'nun Kuzey Kafkas (Dagistan) Harekâtina Dâir (Arsiv Vesikaları Isıgında–1917–1919). *Selçuk Üniversitesi Edebiyat Fakültesi Dergisi,* 30, 17-40.

Nəsibzadə, N. L. (1996). *Azərbaycanın xarici siyasəti (1918).* Ay-Ulduz nəşriyyatı.

Soyuz ob"yedinennıh gortsev Severnogo Kavkaza i Dagestana (1917-1918) i Qorskoy Respubliki *(1918-1920).* (2013). *Dokumentı i materialı.* ALEF nəşriyyatı.